**“Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 8, maddə 522, 12, maddə 731; 2003, 1, maddə 16; 2007, 10, maddə 938; 2008, 5, maddə 341, 7, maddə 602; 2010, 11, maddə 949; 2011, 2, maddə 71, 10, maddə 884; 2014, 11, maddə 1344, 12, maddə 1528) aşağıdakı məzmunda 21.4-cü maddə əlavə edilsin:

“21.4. Bu Qanunun 21.1-ci maddəsi ilə müəyyən edilən təminatlar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilir.”.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2017-ci il
721-VQD